**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

===

*Əlyazması hüququnda*

**FƏRHAD ARIF OĞLU QARAŞOV**

# AQRAR SAHƏDƏ INNOVASIYALI VƏ DAYANIQLI SAHIBKARLIQ MÜHITININ FORMALAŞDIRILMASI PRIORITETLƏRI

**5312.01 – «Sahə iqtisadiyyatı»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2015**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə emlər doktoru, professor
**Mirdaməd Mirsadıq oğlu Sadıqov**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru
**Natiq Əli oğlu Cavadov**

iqtisad üzrə fəlsəfə doktoru
**Asif Abuzər oğlu Həsənov**

**Aparıcı təşkilat:** **AMEA-nın Eımi İnnovasiyalar Mərkəzi**

Müdafiə 29 mart 2015-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 27 fevral 2015-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞIN ÜMUMI XARAKTERISTIKASI

**Mövzunun aktuallığı.** XXI əsrin xarakterik cəhətlərindən biri insan fəaliyyətinin bütün sahələrində yeniliklərin üstünlüyünün və inkişafın gələcək nəsillərin mənafeyinə xidmətinin təmin edilməsinin obyektiv zərurətə çevrilməsidir. Belə ki, nəinki təsərrüfatçılığın mövcud sistemi, hətta ənənəvi paradiqma planetar resursların yaxın perspektivdə tükənməsi təhlükəsinin yüksək ehtimalından başqa bir şey vəd etmir. Bərpa olunan və bərpa olunmayan resurslardan istifadə rejimlərinin elmi əsaslandırılması obyektiv zərurətə çevrilmiş, bu istiqamətdə texnoloji təminatın möhkəmləndirilməsi imkanlarını ön plana çıxarmışdır.

İqtisadiyyatın digər sahələrinə nisbətən aqrar sahədə innovasiyalı inkişafın alternativsizliyinin, ərzaq təhlükəsizliyi müstəvisində birmənalı qəbul edilməsi bəşəriyyət üçün həyati əhəmiyyətli problemdir. İqtisadi inkişafın lokomotivi, sosial rifahın yüksəldilməsinin potensial amili sayılan sahibkarlığın, haqqında danışılan rakursda, xüsusən qlobal ekoloji böhranın dərinləşməsi səbəbindən ciddiləşən dayanıqlıq tələbləri fonunda rolu diqqət mərkəzində olmalıdır. Belə ki, məhz aqrar sahibkarlıq nəinki iqtisadi, habelə sosial inkişafın strateji məqsədlərinin reallaşmasına, milli iqtisadi təhlükəsizliyin və onun əsas istiqaməti kimi ərzaq təhlükəsizliyinin təminatında aparıcı rol oynamalıdır.

Dayanıqlı və dinamik inkişaf edən müasir aqrar sahənin formalaşması, sahibkarlığın innovasiyalı metod və vasitələrindən istifadə üçün yaradılan iqtisadi mühitdən bilavasitə asılıdır. Sahibkarın, xüsusilə aqrar sahədə birbaşa məsuliyyət şəraitində istehsal amillərini bir araya gətirərək yüksək riskli şəxsi təşəbbüslərinin müvəffəqiyyətli olması üçün, optimal tənzimləyici sistem qurulmalıdır. Bu və digər səbəblərdən innovasiyalı aqrar sahibkarlığın dayanıqlı inkişafa yönümlü tənzimləmə sisteminin nəzəri və təcrübi aspektlərinin kompleks araşdırmalara ehtiyacı vardır.

Bu məqsədlə aqrar sahədə innovasiyalı və dayanıqlı sahibkarlıq mühitinin təşəkkülü prosesi hərtərəfli səciyyələndirilməli, onun formalaşdırılmasının elmi-nəzəri və metodoloji məsələləri tədqiq olunmalı, innovasiyalı və dayanıqlı inkişaf imkanları qiymətləndirilməlidir. Sahədə sahibkarlığın dayanıqlı inkişafı mühitinin formalaşdırılması prioritetləri əsaslandırılmalı, innovasiyalı inkişafının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilməlidir. Sağlam rəqabət aqrar sahədə innovasiyalı və dayanıqlı sahibkarlıq mühitinin formalaşdırılmasının əsas şərti və nəticəsi olmalıdır. Sahədə innovasiyalı inkişafın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilərkən bu amil diqqət mərkəzində



saxlanmalıdır.

Dünyanın tanınmış elm mərkəzlərinin və nüfuzlu beynəlxalq təşkilatların qənaətinə görə bəşəriyyətin qarşısında duran ən mühüm problem kimi ərzaq təhlükəsizlinin təminatında aparıcı amil rolunu, istisnasız olaraq elm və innovasiyalar oynamalıdır.

Qeyd olunanlar aqrar sahədə innovasiyalı və dayanıqlı sahibkarlıq mühitinin formalaşdırılması prioritetlərinin əsaslandırılması və onların reallaşdırılması problemlərinin aktuallığını şərtləndirir.

**Problemin öyrənilmə vəziyyəti.** Sahibkarlıgın,o cümlədən aqrar sahədə inkişafı problemlərinə dair Azərbaycanın iqtisadçı alimlərinin tədqiqatlarının nəticələri mühüm elmi-təcrübi əhəmiyyətə malikdir. Aqrar sahədə sahibkarlıq mühitinin yaxşılaşdırılması, innovasiyalı sahibkarlığın və iqtisadi fəallıgın təşviqi, dayanıqlı inkişafın resurs təminatının və ondan istifadə səmərəliliyinin yüksəldilməsi və bu kimi bir sıra problemlərin nəzəri, metodoloji və təcrübi aspektləri Nadirov A.A., Səmədzadə Z.Ə.,Nuriyev Ə.X., Abbasov A.B., Alıyev İ.H, Axundov Ş, Axundov M., Ataşov B.X. Balayev R.Ə., Eminov N.O., Əhmədov G.Ə., Əhmədov M.A., Həsənov R.T., Hüseynov M.C., İbrahimov İ.H., İbrahimov E.R., İsgəndərov R.K., Qarayev İ.Ş., Qasımov F.H., Quliyev T.Ə., Nəcəfov Z.M., Manafov Q. N., Orucov A.İ., Salahov S.V. , Səfərov Q.Ə., Tagıyev A.H., Verdiyev Ə.Ç. bir sıra Azərbaycan alimləri, həmçinin Bulent Tokat, Derya Şerbetçi, Baklajenko Q.A., Busıqin A.V., Qurnoviş T.Q., Zverev A.V., Zuyeva A.A., Kirtsner İzrael M., Lidjieva K.X., Maykl Teysi, Medouz D.X., Mirkin B. M., Melnik L. Q., Popov N.A., Salmina O.A., Teterin Y.N., Şepakin M.B., Yudanov A.Y., Ovçarenko Q.V., Biqman D., Maeder P., Matsuo T. və xarici ölkələrin digər alimləri tərəfindən dərindən tədqiq olunmuşdur.

Azərbaycanın aqrar iqtisadçı alimlərinin aqrar sahədə innovasiyalı və dayanıqlı sahibkarlıq mühitinin formalaşdırılması problemlərinə dair tədqiqatlarını səmərəli və məhsuldar hesab edirik. Bununla yanaşı, qeyd edək ki, haqqında danışdığımız alimlər kənddə iqtisadi fəallığın fəal təşviqi şəraitində, həmin mühitin formalaşması və inkişafı məsələlərinin kompleks həllini qarşılarına məqsəd qoymamışlar. Müasir dünyada milli ərzaq təhlükəsizliyinin artan əhəmiyyəti şəraitində innovasiyalı və dayanıqlı sahibkarlıq mühitinin formalaşdırılmasının bir çox mühüm aspektlərdə, qarşılıqlı əlaqəli araşdırılmasına ciddi ehtiyac qalmaqdadır.

**Tədqiqatın məqsədi** – innovasiyalı sahibkarlığın dayanıqlı fəaliyyəti mühitinin təşəkkülü proseslərini nəzəri və təcrübi aspektlərdə araşdırmaq və aqrar sahədə onun inkişafının iqtisadi problemlərinin həlli imkanlarını

müəyyənləşdirməklə, innovasiyalı və dayanıqlı sahibkarlıq mühitinin formalaşdırılması prioritetlərini əsaslandırmaq və həmin prioritetlərin reallaşdırılması üçün təklif və tövsiyələr hazırlamaqdan ibarətdir.

Qarşıya qoyulmuş məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- innovasiyalı sahibkarlığın konseptual əsaslarının araşdırılması, aqrar sahədə onun xüsusiyyətlərinin aşkar edilməsi;
- aqrar sahədə sahibkarlığın dayanıqlı inkişafı mühitinin formalaşdırılmasının nəzəri-metodoloji müddəalarının əsaslandırılması;
- Azərbaycanda aqrar sahibkarlıq mühitinin xarakteristikası, sahədə innovasiyalı fəaliyyətin inkişaf imkanlarının aşkar olunması;
- aqrar sahibkarlıq subyektlərinin dayanıqlı inkişaf imkanlarının qiymətləndirilməsi;
- innovasiyalı aqrar sahibkarlığın inkişafının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- sahədə sahibkarlığın dayanıqlı inkişafı mühitinin təşəkkülü prioritetlərinin əsaslandırılması;
- dayanıqlı inkişaf edən innovasiyalı aqrar sahibkarlığın səmərəliliyinin yüksəldilməsi üzrə təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti –** ölkədə kənd təsərrüfatı məhsulları istehsal edən sahibkarlıq təsərrüfatlarıdır.

**Tədqiqatın predmetini** innovasiyalı inkişaf şəraitində aqrar sahibkarlıq fəaliyyətinin səmərəliliyini və sahədə dayanıqlı inkişafı mühitini şərtləndirən amillər, meyillər və qanunauyğunluqlar təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Azərbaycanın və xarici ölkələrin iqtisadçı alimlərinin dayanıqlı inkişaf və aqrar sahədə innovasiyalı sahibkarlıq mühitinin formalaşması problemlərinə həsr olunmuş əsərləri, Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, hökumətin qərarları və digər normativ sənədlər nəzəri əsas kimi qəbul edilmişdir.

İslahatların dərinləşdirilməsi şəraitində müxtəlif mülkiyyət formaları üçün bərabər şərait yaradılmasının, istehsal sahibkarlığının, dayanıqlı və innovasiyalı inkişafın, sahədə istehsal-kommersiya fəaliyətinin səmərəliliyini əks etdirən müddəalar tədqiqatın metodoloji əsasını təşkil edir.

İşdə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı, İqtisadiyyat və Sənaye və digər nazirliklərin məlumatlarından, aqrar və aqrar-sənaye qurumlarının və elmi-tədqiqat institutlarının normativ-arayış və texnoloji sənədlərindən, habelə xüsusi müayinə və



sorğu materialları istifadə edilmişdir.

Dissertasiya işində statistik-iqtisadi, məqsədli-proqram, monoqrafik və digər üsullar tətbiq olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Aqrar sahədə innovasiyalı və dayanıqlı sahibkarlıq mühitinin formalaşdırılması problemlərinin kompleks tədqiqində ilk addımlardan biri olan dissertasiya işində əldə edilmiş nəticələrdə elmi yeniliklər aşağıdakılardır:

- innovasiyalı aqrar sahibkarlığın təşəkkülünün əsas nəzəri-metodoloji müddəaları əsaslandırılmış və inkişafın sahə xüsusiyyətləri aşkar olunmuşdur;
- innovasiyalı fərdi sahibkarlığın və dayanıqlı aqrobiznesin tənzimlənməsi mühitini şərtləndirən əsas amillər müəyyən edilmişdir;
- ölkədə aqrar sahibkarlıq mühiti, innovasiyalı fəaliyyət meyarları üzrə xarakterizə edilmiş, dayanıqlı inkişaf imkanları və meyillərini şərtləndirən amillərin təsiri qiymətləndirilmişdir;
- aqrar sahədə innovasiyalı sahibkarlığın inkişafının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri və vasitələri müəyyənləşdirilmişdir;
- aqrar sahibkarlığın dayanıqlı inkişafı mühitinin təşəkkülü prioritetləri əsaslandırılmışdır;
- innovasiyalı və dayanıqlı aqrar sahibkarlığın səmərəliliyinin yüksəldilməsi üzrə təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işində əsaslandırılan nəzəri-metodiki müddəalar, təklif və tövsiyələr aqrar sahədə innovasiyalı sahibkarlıq fəaliyyətini stimullaşdırmaq və dayanıqlı inkişafın tənzimləmə sisteminin təkmilləşdirilməsi üzrə təklifləri tətbiq etməklə ölkənin kənd təsərrüfatı qarşısında duran vəzifələrin yerinə yetirilməsini sürətləndirməyə imkan verir.

Əsaslandırılmış yanaşmalar innovasiyalı aqrar sahibkarlığın dayanıqlı inkişaf mühitində səmərəliliyinin yüksəldilməsi imkanlarını genişləndirməklə sahənin inkişaf perspektivlərini müəyyənləşdirməyə yönəlmişdir. Təklif və tövsiyələr aqrar islahatların dərinləşdirilməsi şəraitində innovasiyalı sahibkarlığın iqtisadi cəlbediciliyini yüksəltmək üçün istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi**. Dissertasiyanın əsas müddəa, nəticə və təklifləri 2011-2014-cü illərdə keçirilmiş beynəlxalq və ümumrespublika səviyyəli konfranslarda müzakirə edilmişdir.

Tədqiqatın əsas müddəaları və nəticələri Azərbaycan Respublikası Kürdəmir Regional Aqrar Elm Mərkəzi tərəfindən istifadə üçün qəbul olunmuşdur (3 dekabr 2014-cü il tarixli 54 saylı arayış).

Tədqiqat dövründə dissertasiya işinin mövzusu Azərbaycan Aqrar Universitetində aparılan elmi tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmuş, aktual problem kimi elmi seminarlarda məruzə edilmişdir.

Dissertasiya mövzusu üzrə müəllifin ümumi həcmi 3,2 çap vərəqi olan elm əsəri, o cümlədən 6 məqaləsi və 1 tezisi çap olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya giriş, 3 fəsil, nəticə, istifadə edilmiş 165 adda ədəbiyyat siyahisindan ibarət olmaqla, ümumi həcmi 140 səhifədir. İşdə 12 cədvəl və 4 şəkil vardır.

## TƏDQIQATIN ƏSAS MƏZMUNU

İşin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, nəzəri-metodoloji əsasları, məlumat mənbələri, elmi yeniliyi, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması vəziyyəti öz əksini tapmışdır.

Dissertasiya işinin "İnnovasiyalı və dayanıqlı sahibkarlıq mühiti və aqrar sahədə onun formalaşdırılmasının elmi-nəzəri və metodoloji məsələləri" adlanan birinci fəslində innovasiyalı sahibkarlığın konseptual əsasları araşdırılmış və aqrar sahədə onun xüsusiyyətləri aşkar edilmiş, aqrar sahədə sahibkarlığın dayanıqlı inkişafı mühitinin formalaşdırılmasının nəzəri-metodoloji məsələləri tədqiq olunmuş, innovasiyalı fərdi sahibkarlığın və dayanıqlı aqrobiznesin tənzimlənməsinin qabaqcıl xarici təcrübəsi öyrənilmişdir.

Yeni əsrin başlanğıcı Azərbaycanda sahibkarlığın inkişafı üçün genişmiqyaslı həlledici tədbirlərlə əlamətdar olmuşdur. Ümummilli Lider Heydər Əliyev milli neft strategiyasının uğurlarının təməlini möhkəmləndirməklə yanaşı, qeyri-neft bölməsinə diqqətin artırılması zərurətini əsaslandırmış, dövlətin iqtisadi təhlükəsizliyi meyarlarını önə çəkərək investisiya mühitinin optimallaşdırılmasının, respublika iqtisadiyyatının tarazlı və şaxələndirilmiş inkişafının konseptual əsaslarını vermişdir.

Ənənəvi sahibkarlıq mühitində idarə olunan obyektin seçilmiş məqsədə doğru hərəkəti təmin edildiyindən qarşıya çıxan problemlər, həmin hərəkəti ləngidə bilirsə, innovasiyalı sahibkarlıqda belə vəziyyətlə qarşılaşmaq ehtimalı qismən aşağıdır. Məsələ ondadır ki, innovasiyalı sahibkarlıqda, bir çox hallarda idarəetmə obyektinin dəyişdirilməsi (yenilənməsi, təkmilləşdirilməsi) nəzərdə tutulur.

Aqrar sahədə innovasiyalı sahibkarlıq konsepsiyasının reallaşmasında mühüm rol oynayan innovasiyalı fəaliyyətin idarə edilməsi və təşkili prosesində bu məqam aşkar şəkildə öz əksini tapmasa da, istehsalın, elmin və innovasiyaların idarə edilməsinə vahid rakursda yanaşma, idarə olunan



obyektin seçilmiş yeni məqsədə adaptasiyası istiqamətində addımlarla müşayiət olunur (şəkil 1.1).




Şək. 1. Aqrar innovasiyalı fəaliyyətin təşkilinin sadələşdirilmiş sxemi

Aqrar sahədə innovasiyalı sahibkarlığın formalaşması və inkişafının konseptual istiqamətləri müəyyənləşdirilərkən, ilk növbədə sistem əmələ gətirən aşağıdakı məqamlar nəzərə alınır: - sahibkar iqtisadi fəallığın lokomotivi, hipotetik baxımdan aqrar sahədə və ümumilikdə kənd yerlərində genişlənən və innovativliyi ilə seçilən fəaliyyət imkanlarına, opertaiv və adekvat reaksiya verməyə hazır olan subyektdir; mükəmməl iqtisadi-ekoloji normativ-hüquqi bazanın yaradılmasında maraqlı olan sahibkar, araşdırmalardan və qabaqcıl təcrübədən göründüyü kimi, müvafiq işlək mexanizmin mövcudluğu şəraitində resursqoruyucu fəaliyyət istiqamətlərinə üstünlük verir; güclü daxili motivləşdirməyə malik sahibkarlıq şəbəkəsi məhsuldar və səmərəli əmək (istehsal) fəaliyyətinə güclü təsir stimullarını təmin edə və bu əsasda iqtisadiyyatın mütərəqqi struktur dəyişikliklərinə rəvac verə bilər; sahibkarlıq qurumları bazarların müvafiq seqmentlərinin mənimsənilməsi baxımından öz imkanlarını reallaşdırmaq üçün məqsədli və mobil birliklər yaratmaqda sərbəstdirlər.

Kənddə innovasiya infrastrukturunun, əksər hallarda şəbəkə əmələ gətirməməsi, kənd təsərrüfatı istehsalının, xüsusilə bitkiçiliyin məkan pərakəndəliyi, kreditləşdirmə sistemində aqrar sahənin böhranlı vəziyyətlərə həssaslığında ifadə edilən xüsusiyyətlərinin nəzərə alınmasındakı problemlər, informasiyanın natamamlığı, aqroemal sənayesində yeni məhsulun lisenziyalaşdırma, sertifikatlaşdırma və vergitutma prosedurunun mürəkkəbliyi, vergi mühitinin qeyri-sabitliyi sahədə innovasiyalı fəaliyyəti, əhəmiyyətli

dərəcədə ləngidən amillərdir.

Ümumilikdə innovasiyalı sahibkarlığın, o cümlədən innovasiyalı aqrar sahibkarlığın ekosistemlərə münasibəti, heç də həmişə birmənalı və təəssüf ki, pozitiv deyildir. Bunun əsas səbəblərindən biri, iqtisadi fəaliyyətin təbiətə uyğunlaşdırılmasının, kifayət qədər böyük əlavə məsrəflər tələb etməsidir. Üzvi kənd təsərrüfatında kimyəvi maddələrdən, demək olar ki, imtina edilməsi, məhsuldarlığı artıran digər texnogen vasitələrin tətbiqinin ciddi şəkildə məhdudlaşdırılması aqrar sahədə sahibkarlığın iqtisadi maraqlarına təsirsiz qalmır. Odur ki, sahibkar və adi istehlakçıların iqtisadi-ekoloji maraqlarının, sözün həqiqi mənasında uzlaşdırılması, hazırda elmin qarşısında duran və konseptual xarakterli vəzifədir.

İnnovasiyalı sahibkarlıq bioloji müxtəlifliyin bərpası, intesiv inkişaf şəraitində torpaqdan ekoloji istifadə sisteminin tətbiqi, enerji resurslarından tullantısız istifadə, alternativ enerji mənbələrinin iqtisadi dövriyyəyə cəlb edilməsi kimi aktual istiqamətlərdə fəaliyyəti təşkil etməklə kənd təsərrüfatının çoxfuksiyalılığına xidmət edə bilər. Aqrar sahədə innovasiyalı sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının konseptual istiqamətləri kimi, ilk növbədə: - kənd təsərrüfatında innovasiya fəallığına təsir edən amillərin idarə edilməsinin kreativ sisteminin yaradılması; innovasiyalara məsrəflərin elmi əsaslandırılmış həddə dövlət büdcəsindən subsidiyalaşdırılması; sahibkarların elmi mərkəzlərlə qarşılıqlı əlaqələrinin təşviq edilməsi; resursqoruyucu, xüsusilə bərpa olunmayan enerji daşıyıcılarına qanayət etməyə imkan verən texnoloji innovasiyaları geniş tətbiq edən təsərrüfatçılıq subyektlərinə gömrük, patent xidməti və digər istiqamətlərdə imtiyazların verilməsi; risklərin minimumlaşdırılması və bölüşdürülməsinin aqrar sahədə çalışan sahibkar nöqteyi-nəzərindən səmərəli mexanizminin yaradılması qeyd olunmalıdır.

İnnovasiyalı sahibkarlıq fəaliyyətinin idarə olunması, bəzi qeyd-şərtlərlə risklərin idarə edilməsi məsələsinə gətirilə bilər. Sahədə innovasiyaların investisiyalaşması ərzaq təhlükəsizliyinin təminatı, tarazlı regional inkişaf və elmi-texniki siyasətin prioritetlərinə əsaslanmalı, investorlar üçün innovasiya yönümlü imtiyazlı fəaliyyət rejimləri yaradılmalıdır. İnnovasiyaların investisiyalaşdırılmasının perspektivli forması olan innovasiya fondlarının yaradılması - mənbələrin müxtəlifliyi və çoxsaylı olmasını, risklərin bölgüsü və yenidən bölgüsünün adekvat mexanizminin fəaliyyət göstərməsini, dövlət və özəl bölmənin alyansını nəzərdə tutmaqla qarşılıqlı tamamlama effektini reallaşdırmalıdır.

İxtisaslaşmış innovasiya fəaliyyət subyektləri aqrar-ərzaq təsərrüfatında innovasiya fəallığının texnoloji, təşkilati və informasiya təminatını möhkəmləndirməklə onun yüksəldilməsini təşviq edirlər. Klasterial inkişaf aqrar-



sənaye inteqrasiyasının və ixtisaslaşmanın müqayisəli üstünlüklərin reallaşdırılmasına yönəldilən, resurslardan və infrastruktur imkanlarından, o cümlədən müştərək loqistik sistemlərdən səmərəli istifadəyə, əmək ehtiyatlarının (kadr hazırlığının) yaxşılaşdırılması və birgə innovasiyalı istehsal fəaliyyəti kimi meyarlara əsaslanır. İnnovasiyaların bazar yönümünün onun davamlılığı üçün əsas şərtlərdən biri olduğu üçün aqrar-sənaye klasterlərinin sahibkarlığın təşviqindəki rolu artır. İnnovasiyalı inkişaf sənaye və kənd təsərrüfatı istehsal qurumlarının mənafelərin uzlaşdırılmasını, sonuncu isə paritet qiymətlərin əmələ gəlməsini tələb edir.

Dayanıqlı inkişafın nəzəri-metodoloji əsasları təşəkkül mərhələsindədir. Müvafiq elmi təminatın gücləndirilməsi aktual olmaqla, terminoloji məsələləri gündəlikdə saxlayır. Sosial-iqtisadi, ekoloji və digər aspektlərdə inkişafın müxtəlif zaman kəsiyində, vahid kontekstdə qiymətləndirilməsini nəzərdə tutan dayanıqlıq onun məna yükünə yaxındır. Belə ki, innovasiyalı-intensiv inkişafın texnoloji, resurs və institusional təminatının, gələcək nəsillərə, şəxsiyyətin formalaşmasına heç bir ziyan vurmaması, hazırki və gözlənilən potensialın gücləndirilməsi dayanıqlığın ilkin şərtlərindəndir. Azərbaycanca olan mənbələrdə, xüsusilə iqtisadçı alimlərin əsərlərində, inkişafın dayanıqlığı və davamlılığı anlayışlarının eyniləşdirilməsi nadir hal deyildir. Bununla belə, inkişafın dayanıqlığı iqtisadi proseslərin davamlılığı ilə deyil, inkişafın davamlı olması ilə eyniləşdirilir. Belə yanaşmada rasional rüşeyim olsa da, inkişafın dayanıqlığı anlayışını daha informativ hesab edirik. Sosial inkişafın dayanıqlığı məsələsinə gəldikdə isə, əksər hallarda davamlı termininin işlənməsi məqbul sayıla bilər. Mürəkkəb sistemlərdə (iqtisadi sistemlər, heç şübhəsiz dinamik və mürəkkəb sistemlərdir) dayanıqlıq, məhz dinamik müvazinəti nəzərdə tutur. Digər tərəfdən iqtisadi inkişafın dayanıqlığı, onun baş verdiyi mühitdə əsas xarakteristikaların məqbul nisbətlərinin, az-çox dərəcədə davamlılığının gözlənməsi halında təmin olunur. Dayanaqlı inkişaf, xüsusilə aqrar sahədə iqtisadi artımın, hazırda qəbul edilən anlamda məhdudlaşdırılmasını deyil, təbii resurslarından iqtisadi – ekoloji baxımdan səmərəsiz istifadə baxımından istifadəsinin qarşısının alınmasını nəzərdə tutmalıdır.

Aqroekosistemin bütövlüyünün, bioloji müxtəlifliyin dəstəklənməsi, təbii və texnogen resursların bir - birini qarşılıqlı əvəzlənməsi meyillərinin güclənməsi dayanıqlı inkişaf mühitinin formalaşmasına həlledici təsir göstərə bilər. Həmin təsirin reallaşması isə mülkiyyət formasından asılı olmayaraq bütün iqtisadi subyektlərin bir – birini tamamlayan və miqyas effekti yaradan fəaliyyətinin motivasiyası səviyyəsindən asılıdır. Dayanıqlı inkişaf təbii resursların və kapitalın artımına və ya heç olmasa, hiss olunacaq dərəcədə

azalmamasına istiqamətlənməlidir. Aqrar sahədə sahibkarlığın dayanıqlı inkişafı mühitini formalaşdıran əsas amillər həm sahə, həm də ərazi prinsipləri üzrə səciyyələndirilməlidir. Sahə baxımından ekzogen sayılan makro amillərə gəldikdə isə: - ümumilikdə kənddə işgüzar fəallığın, o cümlədən cari kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı fəaliyyətinin məqbul gəlirliyinin təmin olunmasına əlverişli şəraitin yaradılması; müxtəlif təsərrüfat qurumlarının maliyyə durumunun yaxşılaşdırılması; ətraf mühitin qorunması; ərzaq təhlükəsizliyi və iqtisadi-ekoloji baxımdan rentabelli aqrar fəaliyyətin dəstəklənməsi məsələləri önə çəkilməlidir.

Mühit yaradan amil kimi ekoloji reqlamentlərə cavab verməyən intensivləşmənin dayanıqlı inkişafla ziddiyyət təşkil etməsi hazırda bəşəriyyətin qarşılaşdığı bir sıra qlobal problemlərin əsas səbəblərindən biri hesab olunmalıdır. Aqrar sahədə sahibkarlığın dayanıqlı inkişafı mühiti kənd təsərrüfatında kimyalaşmanın nəinki yuxarı həddini, həmçinin struktur (nisbət) reqlamentlərini ciddi surətdə müəyyənləşdirməyi tələb edir. Həmin reqlamentlər, təsərrüfatçılıq təcrübəsində torpaq və su resurslarından istifadə rejimlərinin mühüm atributlarına çevrilməlidir. Aqrar sahibkarlığın dayanıqlı inkişaf mühitinin əlverişliyi risklərin idarə edilmısi sisteminin aşağıdakı tələblərə cavab verməsi səviyəsindən asılıdır:- islahatların dərinləşdirilməsi konsepsiyasında risklərin neytrallaşdırılması tədbirlərinin nəzərə hərtərəfli alınması; biznes planların hazırlanmasında risk-menecmentin mütərəqqi üsullarının fəal tətbiqi və həmin planların ekspertizası prosesində bu məsələyə xüsusi münasibətin olması; aqrar sahibkarın davamlı genişlənən fəaliyyətinin yaxın perspektivlərini müəyyənləşdirərkən, qismən idarə olunan və idarə olunmayan parametrlərinin sayını dəyişməsinin nəzarətdə saxlanması; klasterial inkişafda risklərin bölüşdürülməsinin, hiss olunacaq dərəcədə genişlənən imkanlarının nəzərə alınması; dayanıqlı inkişaf mühitinin formalaşmasında ekoloji menecmentin artan rolunun nəzərə alınması.

Sahibkarlığın dayanıqlı inkişafı mühitini xarakterizə edən və birmənalı qəbul edilən göstəricilər (indikatorlar) sistemi, təşəkkül mərhələsindədir. Həmin indikatorların formalaşdırılması üçün, əsasən aşağıdakı yanaşmalardan istifadə olunur: - inkişafın ayrı - ayrı aspektlərini, o cümlədən iqtisadi-texnoloji, ekoloji- texnoloji, etik – psixoloji aspektləri əks etdirən göstəricilər sisteminin qurulması; dayanıqlı inkişafın aqreqasiyalı (iki və daha şox aspekt üzrə) göstəricilərinin qurulması. Dayanıqlı inkişafın ekoloji səmərəliliyinin xarakterizə edən, mühüm indikatorlar qismində: - ətraf mühitin mühafizəsi tədbirlərinin inteqral səmərəliliyi; sahənin inkişafının təbiətin mühafizə aspektlərinin iqtisadi səmərəliliyi; təbiəti mühafizə üzrə hesabatlarda əhatə olunan göstəricilər və i.a. xüsusi qeyd olunmalıdır.



Dayanıqlı inkişafın institusional təminatında əhatə olunan: - iqtisadi – ekoloji siyasətin hazırlanması və dayanıqlı (müsbət dinamikaya malik) sosial-iqtisadi inkişaf konsepsiyasına uyğun olaraq onların reallaşdırılması prosesinin proqramlaşdırılması; özünü kifayət qədər təsdiqləmiş beynəlxalq hüquqi alətlərdən fəal istifadə; idarə olunan obyektlərin fəaliyyət rejimlərinin, mərhələli və bir-birini tamamlayan korreksiyası; elmi tədqiqatların təşkili, nəticələrin tətbiqi və bu kimi bir sıra digər məsələlər özəl bölmədə təşəbbüskarlıq üçün əlverişli şəraitinin yaradılmasında mühüm rol oynayır.

Ekoloji böhran artım iqtisadiyyatının alternativi kimi, ətraf mühit və insan ekologiyası amilini önə çəkən yaşıl iqtisadiyyata üstünlük verilməsi çağırışlarına rəvac vermişdir. Ənənəvi (artım) və yaşıl iqtisadiyyat arasındakı ziddiyyət sivilizasiyanın cari və perspektiv rifahı arasında seçimdə, əsasən iqtisadi motivlərdən irəli gələn subyektiv cəhətlərin üstünlüyü halında əyanləşir. Yaşıl aqrar iqtisadiyyat, ilkin yanaşmada sahibkarlıq subyekti kimi insanın və ətraf mühitin üzvi vəhdətini, o cümlədən neqativ texnogen təsirlərin minimumlaşdırılmasını nəzərdə tutur. Ekoloji təsərrüfatçılığın yaşıl iqtisadiyyat elementlərini əks etməsi tədrici və iqtisadi baxımdan heç də həmişə ziddiyyətsiz proses deyildir. Həmin prosesin sivilizasiya maraqları baxımından səmərəliliyinə, insan-iqtisai sistem-təbiət tandeminə yeni paradiqmadan yanaşmaların üstünlüyünün təmin edilməsi sayəsində nail olmaq mümkündür.

İnnovasiyalı fərdi aqrar sahibkarlığın və dayanıqlı aqrobiznesin vahid rakursda nəzərdən keçirilməsi, xarici təcrübədən göründüyü kimi aşağıdakı amillərlə şərtlənir: - fərdi sahibkarlıq kənd təsərrüfatı məhsullarının istehsaldan son istehlaka qədərki bütün proseslərini əhatə etmədiyi halda aqrobiznes daha geniş fəaliyyət dairəsinə malikdir; innovasiyalı fərdi sahibkarlıq əməkdaşlığın (onun daha yüksək forması kimi çoxsəviyyəli kooperasiyanın və sahələrarası dayanıqlı inteqrasiyanın) bütün mümkün formalarının fəal istifadəsini nəzərdə tutduğundan inkişaf edən və fəaliyyət arealını davamlı olaraq genişləndirən aqrobiznes dairələrinə nüfuz etməyi nəzərdə tutur; dayanıqlı aqrobiznes cəmiyyətin, kollektivin və fərdin cari və perspektiv maraqlarının üzvi vəhdətinə xidmət etməklə innovasiyalı fəaliyyətin üstünlüklərindən yararlanmaq məcburiyyətindədir.

Dayanıqlı aqrobiznes strategiyasının hazırlanmasında qarşıya qoyulan məqsədlər qismində, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən çıxış edərək qeyd edək ki, bərpa olunan resursların azalması, son tədqiqatlardan və xarici təcrübədən göründüyü kimi, həlledici dərəcədə aqrar sahədə biznes mühitinin dayanıqlığı prinsiplərinin pozulması ilə şərtlənir. Belə ki, sahədə sahibkarların, bu və ya digər resurs vahidindən maksimum məhsul əldə

etmək cəhdləri, artan tələbatın qarşılanması sayəsində gəlirlərin artırılmasına yönəlmişdir. Başqa sözlə, ayrılıqda götürülmüş sahibkarlıq subyekti nöqteyi-nəzərindən fərdin və cəmiyyətin mənafelərinin uzlaşdırılması, heç də həmişə aktual sayılmaya bilər. Eyni zamanda, itkilərin minimumlaşdırılması, bazar iştirakçıları arasında sövdələşmələrdə istifadə olunan informasiyasının assimetriyasının azaldılması, kooperasiya hərəkatının geniş vüsət alması, dayanıqlı inteqrasiya əlaqələrinin dəstəklənməsi və bu kimi bir sıra digər məsələlərdə konsensus imkanlarının olduğu da diqqətdən yayınmamalıdır. Qlobal iqlim dəyişikliklərinin təhdidləri, resursların tükənməsi təhlükəsinin get-gedə daha da əyaniləşməsi və ümumilikdə ekoloji böhranın simptomlarının davamlılığı dayanıqlı innovativ aqrobiznesin inkişafının prinsip və mexanizmlərinə yeni yanaşmaları obyektiv zərurətə çevirir. Həmin yanaşmalar aqrobiznesin səmərəli təşkili formalarının, o cümlədən mütərəqqi modellərinin müəyyənləşdirilməsi məsələsinə gətirilə bilər.

Korporativ effekti reallaşdırmaq üçün aqrar sahədə biznes qurumlarının, məhz müasir və mütərəqqi müqavilə münasibətləri bazasında, kənar təşkilatların xidmətlərindən fəal surətdə yararlanması, mövcud iqtisadi reallığın atributuna çevrilməkdədir. Odur ki, autsorsinq modelinin maliyyə resurslarının məhdudluğu halında - öhdəlik və səlahiyyətlərin ötürülməsi mexanizmini zəruri tələblər səviyyəsində formalaşdırılmasına, autsorserlərin fəaliyyətinin sifarişçi tələblərinə uyğunlaşdırılmasına, autsorsinqin keyfiyyətinə nəzarətin yüksək səmərəliliyinə əsaslanan səmərə verə bilər.

Dissertasiya işinin "**Aqrar sahibkarlıq mühitinin xarakteristikası, onun innovasiyalı və dayanıqlı inkişafı imkanlarının qiymətləndirilməsi**" adlanan ikinci fəslində Azərbaycanda aqrar sahibkarlıq mühiti xarakterizə edilmiş, sahədə innovasiyalı fəaliyyətinin mövcud səviyyəsi təhlil olunmuş, aqrar sahədə sahibkarlığın dayanıqlı inkişafı imkanları qiymətləndirilmişdir.

Ölkədə aqrar sahibkarlıq fəaliyyətininin himayəsi edilməsi və kənd təsərrüfatı məhsulları istehsalının təşviqi istiqamətində həyata keçirilən tədbirlər, istehsalın və məhsulun rəqabət qabiliyyətini artırmaq baxımından mühüm addımlar sayılmalıdır. Müxtəlif mülkiyyət mənsubiyyətli aqrar istehsal və emal qurumlarının sahədə üstünlük təşkil etməsi, xeyli dərəcədə həmin tədbirlərin nəticəsidir. Hazırda kənd təsərrüfatında özəl bölmənin xüsusi çəkisi, az qala 99,0 faiz təşkil edir.

Təhlil dövründə orta hesabla bir fərdi təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi 2,2 dəfə artaraq, 2013-cü ildə 18,5 ha təşkil etmişdir. Fərdi sahibkar təsərrüfatlarının ümumi məhsulu (müvafiq illərin faktiki qiymətləri ilə) 2005-2013-cü illər ərzində 3,1 dəfə, balans gəliri 3 dəfə, kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri 1,6



dəfə, bir işçiyə düşən ümumi məhsul (əmək məhsuldarlığı) 4,5 dəfə artmışdır (cədvəl 1).

Cədvəl 1

Azərbaycanın kənd təsərrüfatında fərdi sahibkarlıq fəaliyyətinin bəzi göstəriciləri

| Göstəricilər | 2005 | 2010 | 2012 | 2013 | 2013-cü ildə 2005-ci ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|
| Gəlirlə işləyən fərdi sahibkar təsərrüfatlarının xüsusi çəkisi, %-lə | 99,6 | 97,2 | 99,9 | 99,4 | - |
| Balans gəliri, min manat | 2848 | 7521 | 8643 | 8676 | 304,6 |
| Kənd təsərrüfatının ümumi məhsulu (müvafiq illərin faktiki qiymətləri ilə), mlyn manat | 10,2 | 24,9 | 29,6 | 31,5 | 308,8 |
| Kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri, milyon manat | 12,98 | 21,09 | 22,08 | 20,19 | 155,5 |
| Bir işçiyə düşən ümumi məhsul (əmək məhsuldarlığı), manat | 733 | 2362 | 2883 | 3330 | 454,3 |
| Orta hesabla bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi, ha | 8,4 | 17,5 | 19,3 | 18,5 | 220,2 |
| Kənardan cəlb edilmiş işçilərin xüsusi çəkisi, %-lə | 17,9 | 21,9 | 16,5 | 18,6 | - |

2005-2013-cü illər ərzində fərdi sahibkar təsərrüfatında orta hesabla bir işçiyə düşən ümumi məhsul (əmək məhsuldarlığı), kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri və həmin təsərrüfatların ümumi məhsulu dönmədən artmış, bir fərdi sahibkar təsərrüfatına orta hesabla düşən kənd təsərrüfatına yararlı torpaq sahəsində isə tərəddüdlər baş vermişdir (şək.2).

Respublikada bitkiçiliklə məşğul olan sahibkarlarlığın stimullaşdırılması üçün görülən tədbirlər sistemi öz səmərəsini verməkdədir və onun əhatə dairəsinin genişləndirilməsi məqsədəuyğundur. Heyvandarlığın inkişafında da sahibkarlığın rolunun artırılması üçün əlverişli mühit formalaşdırılır. Sahibkarlıq, o cümlədən aqrar istehsal və emal fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərində yoxlamaların uçotunun aparılması və digər tədbirlər əsassız yoxlamaların aradan qaldırılması istiqamətində əhəmiyyətli müsbət nəticələr vermişdir. Bununla belə, 2005-2013-cü illər ərzində fərdi sahibkar təsərrüfatlarında

kənd təsərrüfatı məhsullarının satış qiyməti, müəyyən tərəddüdlərlə artmağa meyilli olmuşdur.




TS-Orta hesabla bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi;

ƏM-bir işçiyə düşən ümumi məhsul (əmək məhsuldarlığı);

ƏF-kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri;

ÜM- Kənd təsərrüfatının ümumi məhsulu

Şək. 2. Azərbaycanda fərdi sahibkar təsərrüfatlarının fəaliyyətinin dinamikası (2005=1)

Əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının miqdarı, onların saxlanması və daşınması xarakteristikaları (əsasən, nisbətləri) optimallaşdırılmalı, ixtisaslaşdırılmış anbarlar şəbəkəsinin yaradılmalı, mövsümlük və subyektiv səbəblərdən boşdayanmalar minimuma endirilməlidir. Müvafiq istiqamətdə mühüm müsbət addımlar atılmışdır. Təkcə 2010-2011-ci illər ərzində taxıl və taxıl məhsullarının saxlanması üçün 145 min ton tutumu olan anbar və elevatorlar istifadəyə verilmişdir .

Kənd təsərrüfatı məhsulları istehsalı və emalında innovativliyin faktiki səviyyəsini qiymətləndirmək üçün, hər şeydən əvvəl: - müvafiq normativ - hüquqi baza və institusional təminatın innovasiyalı inkişafa yönümlüyü müəyyən edilməli; innovasiyalı fəaliyyət imkanlarını səciyyələndirən informasiya bazası yaradılmalı; monitorinqlərin nəticələrinin innovasiyalı fəaliyyətin informasiya bazasının formalaşdırılmasında istifadəsi dərəcəsi müəyyənləşdirilməlidir. Bu məqsədlə həmçinin: - kənd təsərrüfatı məhsulları



istehsalı və emalı sahələrində məşğulluğun texnoloji strukturu; kənd təsərrüfatı dövriyyəsində olan və gələcəkdə bu dövriyyəyə cəlb ediləcək torpaq sahələrinin münbitliyinin artırılmasına vəsait qoyuluşlarının həcmi və strukturu; sahədə elmi tədqiqatlara və modernləşməyə yönəldilən maliyyələşmə mənbələrinin xarakteristikaları, o cümlədən dövlət büdcəsi vəsaitinin həcmi; innovasiyalı fəaliyyət iştirakçılarının (bilavasitə və vəzifə səlahiyyətləri daxilində yardımçı olan) işçilərin tərkibi və sayı; innovativ texnoloji transferlərin bütün əsas parametrləri müqayisəli təhlilə cəlb olunmalıdır.

Azərbaycanda, hazırda mövcud olan informasiya bazasında aqrar sahədə məhsul və proses innovasiyalarının inkişaf tempinin, kəmiyyətcə kifayət qədər dəqiqliklə qiymətləndirilməsi, ciddi çətinliklərlə üzləşir. Belə ki, əqli mülkiyyətin qorunmasının normativ - hüquqi bazası təşəkkül mərhələsindədir, innovasiyalı inkişafın informasiya və metodiki təminatında bazar münasibətlərinin tələbləri lazımi səviyyədə nəzərə alınmır, innovasiyaların idarə edilməsinin informasiya sistemi olduqca ləng formalaşır, institusional təminatın səviyyəsi, hələ ki, arzu olunan səviyyədə deyildir. Sadalanan neqativ təsirli amillərin neytrallaşdırılması istiqamətində mövcud imkanlardan daha səmərəli istifadə edən aqrar istehsal və emal profilli holdinq, şirkət və digər iqtisadi subyektlərin təcrübəsinin təhlili sahədə innovasiyalı fəaliyyətinin mövcud səviyyəsinin qiymətləndirilməsi və inkişaf meyillərinin xarakteristikası baxımından məqsədəuyğundur. Odur ki, ölkədə innovasiya yönümü ilə seçilən müəssisələrin, o cümlədən, Azərsun Holdinq, “Milk - Pro” MMC, Gilan MMC və bir sıra digər innovativ yönümlü qurumlarının fəaliyyəti araşdırılmışdır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan ölkələr innovasiyalı inkişaf imkanlarını qiymətləndirmək məqsədilə unufikasiyalı yanaşmalar tətbiq edir, o cümlədən, “innovasiya icmal tədqiqatları” aparırlar. “İnnovasiya icmal tədqiqatları” qaydalarına uyğun olaraq ölkənin kənd təsərrüfatı məhsulları emalı müəssisələrində innovasiyalı prosesləri ləngidən iqtisadi və istehsal xarakterli amillərin yeniliklərə təsirini qiymətləndirmək üçün aparılacaq sorğularda- xüsusi pul vəsaitlərinin və dövlətin maliyyə yardımının kifayət etməməsi, yeni məhsullara ödəniş qabiliyyətli tələbin aşağı, yeniliklərə məsrəflərin yüksək olması, iqtisadi risklərin böyük ehtimalı və yeni məhsullara məsrəflərin ödənilməsinin uzunmüddətli olması suallardan istifadə edilməsi məqsədəuyğundur.

İnnovasiya fəallığına və ümumilikdə aqrar sahədə innovasiya mühitini formalaşdıran amillərin təsirini qiymətləndirmək üçün müxtəlif təsərrüfatçılıq formasına malik aşağıdakı qurumlarda, adi qaydada və ya informasiya texnologiyalarının imkanlarından istifadə etməklə sorğu aparılmışdır:

“MARS-FK Ltd” MMM və Zeynallı-33” kənd təsərrüfatı müəssisəsi (Kürdəmir), “Gomuşçu” kəndli təsərrüfatı (Saatlı rayonu), “Sevinc” ailə-kəndli təsərrüfatı, “Əlibəyli” ailə-kəndli təsərrüfatı (Zərdab rayonu), Viyen kənd istehsal kooperativi (Lənkəran), “Balacans” aqroemal müəssisəsi( Balakən rayonu), Qax Konserv Zavodu. Eyni zamanda Azərbaycan Dövlət Aqrar Universitetinin, Azərbaycan Elmi-Tədqiqat Əkinçilik, Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutlarının mütəxəssislərinin də, Kürdəmir Regional Aqrar Elmi Mərkəzinin alim və mütəxəssislərinin kənd təsərrüfatı məhsulları emalı müəssisələrində innovasiyalı prosesləri ləngidən iqtisadi və istehsal xarakterli amillərin innovasiya fəallığına və ümumilikdə aqrar sahədə innovasiya mühitinə təsirini təsirinin qiymətləndirilməsi məsələlərinə münasibətini öyrənmək üçün sorğular aparılmışdır. Həmin sorğuların nəticələrinə, digər yanaşmalarla bərabər, ekspert texnologiyalarının köməyi ilə də qiymət verilmişdir (cədvəl 2).

Cədvəl 2

Kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssisələrində, elmi-tədqiqat mərkəzlərində innovasiyaları ləngidən iqtisadi amillər (aparılan sorğulara əsasən)

| Amillər | Əsas amillər | | | Əhəmiyyətli amillər | | | Az əhəmiyyətli amillər | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2013 | 2010 | 2011 | 2013 | 2010 | 2011 | 2013 |
| Xüsusi pul vəsaitlərin kifayət etməməsi | 40 | 30 | 40 | 20 | 20 | 30 | 20 | 10 | 10 |
| Yeni məhsullara ödən qabiliyətli tələbin azlığı | 20 | 10 | 10 | 10 | 20 | 40 | 20 | 30 | 40 |
| Yeniliklərə məsrəflərin yüksəkliyi | 30 | 30 | 40 | 10 | 30 | 20 | 50 | 30 | 30 |
| İqtisadi riskin yüksəkliy | 20 | 10 | 10 | 20 | 20 | 20 | 40 | 30 | 40 |
| Yeni məhsullara məsrəflərin ödənilməsi müddətinin uzun olması | 10 | 20 | 20 | 20 | 10 | 20 | 40 | 40 | 20 |

Kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssisələrində, elmi-tədqiqat mərkəzlərində innovasiyaları ləngidən iqtisadi amillərə dair aparılan sorğulara cavablarda: - xüsusi pul vəsaitlərinin azlığını; yeni istehsala, xüsusilə start dövründə və kütləvi istehsala başlayana qədər məsrəflərin yüksəkliyini; risk ehtimalının yüksəkliyi əsas amillər qismində qeyd edənlər üstünlük təşkil etmişdir. Təhlil dövründə sorğu aparılan qurumlarda yeni məhsulların satış bazarları haqqında məlumatsızlığı əhəmiyyətli hesab edənlərin sayı artmış, yeni məhsulların satış bazarları haqqında məlumatsızlıq amilini əsas hesab edənlərin sayı isə azalmışdır. Rəyi soruşulanların fikrinə



görə kənd təsərrüfatında innovasiya fəallığını dəstəkləyən vasitələr qismində, ilk növbədə dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması, emalı və daşınması, kənd təsərrüfatı məhsulları və resursların qiymətlərinin tənzimlənməsi, bitkiçilik və heyvandarlığın subsidiyalaşdırılması mexanizminin təkmilləşdirilməsi vurğulanmalıdır.

İnnovativ təsərrüfatçılıq göstəricilərinin iqtisadi şərhi məqsədilə Kürdəmir rayonunun Karrar kəndinin inzibati ərazisində, Bakı şəhərindən 178-ci kilometrliyində yerləşən “MARS-FK Ltd” MMM- in fəaliyyəti təhlil edilmişdir. Həmin müəssisənin mülkiyyətində olan 323 ha və daimi istifadəsində olan 65 ha torpaq sahəsində nar bağının salınması və becərilməsində innovasiyalı fəaliyyətə üstünlük verilir. Keyfiyyətli məhsul almağa imkan verən nar bağının salınması üçün müəssisə tərəfindən planlı şəkildə bir sıra aqrotexniki və torpaqın məhsuldarlığını artırmaq məqsədi ilə hidrotexniki, fiziki bərpa işləri yerinə yetirilmişdir.

Son illər ölkənin maliyyə imkanlarının genişlənməsi ekoloji tarazlığın bərpasına vəsait ayırmalarını artırmağa imkan vermişdir. Belə ki, Azərbaycanda 2005-2013-cü illərdə ətraf mühitin (atmosferin, su ehtiyatlarının və torpaq resurslarının) mühafizəsinə və təbii ehtiyatlardan istifadəyə yönəldilən investisiyanın dəfələrlə artırılmasına nail olunmuşdur (cədvəl 3).

Cədvəl 3

Azərbaycanda ətraf mühitin mühafizəsinə və təbii ehtiyatlardan istifadəyə yönəldilən investisiyanın dinamikası (mln manat)

| İstiqamətlər | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2013-cü il 2005-ci ilə nisbətən, dəfə |
|---|---|---|---|---|---|---|
| Cəmi | 2,9 | 190,0 | 239,3 | 339,9 | 304,6 | 105 |
| Atmosfer havasının mühafizəsinə | 1,5 | - | - | - | 9,2 | 6 |
| Su ehtiyatlarının mühafizəsinə | 1,3 | 134,9 | 189,7 | 324,2 | 285,7 | 220 |
| Torpaqların mühafizəsinə | 0,1 | 55,1 | 49,6 | 15,7 | 9,7 | 97 |

Sahədə sahibkarlığın dayanıqlı inkişafı bilavasitə istehsal-kommersiya məsrəflərinin səviyyəsinin, rəqabət qabiliyyəti tələblərinə adekvatlığı ilə əlaqədardır. Hazırda Azərbaycanda aqrar sahibkarlıq subyektlərinin xırda ölçülü olması onların maliyyə dayanıqlığına mənfi təsir edir. Həmin

ölçülərin optimallaşdırılması, heç də həmişə təsərrüfatların iriləşdirilməsini nəzərdə tutmasa da, ölkəmizdə məhz sonuncu istiqamət, xüsusilə taxılçılıqda haqlı olaraq daha perspektivli istiqamət hesab edilmişdir.

Dissertasiya işinin "**Aqrar sahibkarlığın innovasiyalı və dayanıqlı inkişaf mühitinin formalaşdırılması prioritetlərinin əsaslandırılması**" adlı üçüncü fəslində innovasiyalı sahibkarlığın inkişafının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş, aqrar sahibkarlığın dayanıqlı inkişafı mühitinin formalaşdırılması prioritetləri əsaslandırılmış, innovasiyalı və dayanıqlı aqrar sahibkarlığın səmərəliliyinin yüksəldilməsinin vasitə və istiqamətləri müəyyən olunmuşdur.

İnnovasiyalı aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin prioritetlərindən biri innovasiyaların investisiyalaşdırılması proseslərinin idarə edilməsi və iqtisadi, sosial, texnoloji, ekoloji və digər motivlərin uzlaşdırılmasını nəzərdə tutan adekvat qərarların qəbulu üçün mükəmməl mexanizmin formalaşdırılmasıdır. İslahatların dərinləşdirilməsi şəraitində aqrar istehsal və emal sahələrində innovasiyalı sahibkarlığın rəqabət qabiliyyətinə təsirinin idarə olunması və investisiyalaşma prioritetlərinin reallaşdırılması proseslərinin tənzimlənməsi məsələləri vahid müstəvidə həll edilməlidir. Aqrar sahədə innovasiyalı sahibkarlığın stimullaşdırılması prioritetləri qismində, ilk növbədə aşağıdakılar qeyd olunmalıdır: - ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı və son istehlakçıya doğru yeridilişi imkanlarının genişləndirilməsi; - tullantısız aqroemal texnologiyalarının tətbiqinin, texnoloji və iqtisadi mühitinin yaxşılaşdırılması, bu istiqamətdə kompleks yanaşmaların prioritetliyinin təmin olunması; alternativ enerji mənbələrindən istifadənin texnoloji, iqtisadi və digər imkanlarının genişləndirilməsi, istehsalın ərazi təşkilində enerji daşıyıcılarından qənaətcil istifadəyə yönəlik fəaliyyətin bütün mümkün və məqbul vasitələrlə dəstəklənməsi; təbiətə uyğunlaşan əkinçilik və heyvandarlıq üzrə, tədricən formalaşan sistemin inkişafının nəzəri-metodoloji və təcrübi problemlərinin həlli, müvafiq fəaliyyət növlərinin iqtisadi məqbulluğunun təmin olunması; - xammal bazasını formalaşdıran innovasiyalı daxili istehsalın inkişafına dəstək mexanizminin yaradılması; - kənd təsərrüfatına yararlı torpaq sahələrinə antropogen təzyiqlərin azaldılması tədbirlərinin təşviqi; qida rasionunun və ayrı-ayrı qida komponentlərinin insan ekologiyası meyarları ilə idarə olunması; innovasiyalı sahibkarlıq mühitinin daha əhatəli və səmərəli monitorinqi sisteminin yaradılması və onun fəaliyyəti üçün əlverişli mühitin formalaşdırılması və s.

Yerli xammaldan istifadə, daxili istehsalçıların innovasiya fəallığının təşviqi meyarları inkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi,



innovasiyalı sahibkarlığın stimullaşdırlmasında innovasiya fondlarından istifadənin kreativ sisteminin formalaşdırılması üçün real imkanlar açır. Postsovet məkanında innovasiya fondlarının dövlət büdcəsindən maliyyələşdirilməsi təcrübəsi, hələ də üstünlük təşkil etdiyindən, həmin fondların maliyyələşdirilməsi mexanizminin milli elmi-texniki siyasətin aqrar sahədə proteksionizmdən və institusional təminatdan asılılığının minimumlaşdırılması hesabına tranzaksion məsrəfləri aşağı salınması istiqamətində təkmilləşdirilməsi məqsədəuyğundur.

İnnovasiyalı sahibkarlığın, xüsusilə aqrar sahədə inkişafının tənzimlənməsi sisteminin səmərəliliyi: - müasir analitik-informasiya sisteminin, investisiya layihələrin seçimi və idarə olunması sistemindən; risklərin qiymətləndirilməsi və onların minimumlaşdırılması mexanizminin xarakteristikalarından; maliyyə mənbələrinin müəyyənləşdirilməsi üzrə qərarlarının operativliyindən həlledici dərəcədə asılıdır. Aqrar sahədə innovasiyalı sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi adekvat informasiya bazasının yaradılmasını, o cümlədən müvafiq informasiya infrastrukturunun modernləşdirilməsini, ekoloji təmiz kənd təsərrüfatının, alternativ enerji mənbələrindən istifadənin statistikasının genişləndirilməsini, sənəd dövriyyəsinin unifikasiyasını, innovasiya layihələrinin ekspertizasında standartların mütəmadi yenilənməsini tələb edir. Milli ərzaq təhlükəsizliyinin təminatı aqrar sahədə innovasiyalı sahibkarlığın inkişafının tənzimlənməsi sisteminin prioritetidir. Bu zaman aqrar-sənaye sisteminin resurs və istehsal potensialının formalaşdırılması, əhalinin qida məhsullarına tələbatının fizioloji normalara uyğun təminatı, dövlətin ərzaq ehtiyatlarının idarə edilməsi və bu kimi bir sıra digər hədəflər diqqət mərkəzində olmalıdır.

Sahibkarlığın inkişafı mühitinin dayanıqlığı dedikdə, özəl bölmədə mövcud qanunvericiliyə zidd olmayan əməli təşəbbüskarlıq, davamlı və səmərəli fəaliyyət üçün hüquqi, iqtisadi, institusional, ekoloji amillərin, habelə istehsalın şaxələndirilməsi və ixtisaslaşmanın üzvi vəhdəti, innovasiya fəallığının kreativ imkanlarla şərtlənməsi, adekvat tənzimləmə sisteminin formalaşdırılması nəzərdə tutulur. Aqrar sahədə sahibkarlığın inkişafı mühiti, digər sahələrə nisbətən öz mürəkkəbliyi və dinamikliyi ilə fərqlənir. Belə vəziyyət aşağıdakı amillərin özünəməxsus kəsişməsinin nəticəsidir: - kənd təsərrüfatı məhsullarının istehsalı və emalı istiqamətində sahibkarlıq fəaliyyətində prinsipial fərqlər və onlara differensasiyalı yanaşmanın obyektiv zəruriliyi; əmək və istehsal vərdişlərində ciddi regional və regiondaxili müxtəlifliyin olması; aqroiqlim potensialından istifadə səviyyəsinindəki fərqləri şərtləndirən təbii, texnogen amillərin təsirinin əhatə dairəsində və qismən xarakterində dinamizm; təsərrüfatçılıq sisteminin yerli istehsalçıların

mənafeyinin müdafiəsi və daxili bazarın qorunması prioritetlərindən asılılığı; kənd təsərrüfatının çoxfunksiyalılığı; islahatların dərinləşdirilməsi şəraitində regional ixtisaslaşmadakı təshihlərin, bu və ya digər regionun rəqabət qabiliyyətinə, qiymət siyasətinə, resursqoruyucu texnologiyaların tətbiq arealına ciddi təsiri və i.a.

İqtisadi-ekoloji tənzimləmə mexanizmində nəzərə alınmalı məqamlar baxımından, ilk növbədə: - qlobal səviyyədə ekoloji böhranın şərtləndirdiyi risklərin aradan qaldırılması üçün beynəlxalq koordinasiyanın gücləndirilməsi, təbii - texnogen amillərin təsirindən humusun azalması və bu kimi digər neqativ halların minimuma endirilməsi; region ölkələri üçün ümumi olan ekoloji risklərin neytrallaşdırılması məsələlərinin həlli üçün istehsal və resurs potensialının fəallaşdırılması, intellektual qüvvələrin birləşdirilməsi; milli səviyyədə kənd təsərrüfatı məhsulları istehsalına ənənəvi enerji məsrəfinin azaldılması, alternativ enerji mənbələrindən istifadə üzrə tədbirlərin həyata keçirilməsi; iqtisadi-ekoloji tənzimləmədə iqtisadi motivlərlə üstünlük verilməsi; ölkədaxili regionlarda kimyəvi və texniki vasitələrin ətraf mühitə təsiri arealının daraldılması, ekoloji risklərin idarə olunduğu proqramlaşdırılmış aqrar fəaliyyətin əhatə dairəsinin genişləndirilməsi; təsərrüfat səviyyəsində ekoloji tələblərə cavab verən aqrotexnologiyaların tətbiqinin iqtisadi stimullarından istifadə, aqrobioloji proseslərin ekoloji həssaslığındakı fərqlərin nəzərə alınması, heyvandarlıq təsərrüfatları və yaşayış yerləri arasında sanitar-gigiyenik normalardan irəli gələn məsafə məhdudiyyətinə əməl edilməsi qeyd edilə bilər.

Aqrar sahədə sahibkarlığın dayanıqlı inkişafı mühitinin formalaşdırılmasında maliyyə amilinin rolu, onun digər amillərlə kombinasiyasında əlverişli proporsiyaların təmin edilməsindən asılıdır. Dayanıqlı aqrar sahibkarlığa adekvat maliyyələşmə sisteminin yaradılması, nəinki islahatların başlanğıcında, həmçinin dərinləşdirilməsi dövründə, həmin mühitin mövcudluğunun həlledici şərtinə çevrilə bilər. Struktur transformasiyalarında iqtisadi və sosial məqsədlərin uzlaşdırılmasının prioritetliyi aqrar sahibkarlığın dayanıqlığının mühüm şərtidir. Struktur dayanıqlığı investisiya siyasətinin prioritetlərindən bilavasitə asılıdır.

Aqrar sahibkarlığın dayanıqlı inkişafı mühitinin formalaşdırılması prioritetləri qismində, mükəmməl hüquqi və ahəngdar resurs təminatı, müvazinətli bazar konyunkturuna xidmət, tarazlı struktur strategiyası, müasir infrastruktur şəbəkəsinin yaradılması xüsusi qeyd edilməlidir. Modern infrastruktur şəbəkəsinin mövcudluğu və onun fəaliyyətinin dəstəklənməsi-aqrar sahibkarlıq subyektlərinin zəruri resurslar və texnologiyalarla ahəngdar təminatına şərait yaradır; sahədə innovasiya fəallığının maddi və intellektual



bazasının zənginləşməsinə xidmət edir; aqrar sahibkarlıq subyektlərinin təklif etdiyi əmtəəlik məhsulların vaxtında, kəmiyyət və keyfiyyət itkilərinə yol vermədən son istehlakçıya çatdırılmasına imkan verir.

Aqrar-sənaye inteqrasiyası sahələrarası münasibətlərdə istehsal-kommersiya innovasiyalarının səmərəliliyinin yüksəldilməsi üçün müxtəlif fəaliyyət növlərinin inteqrasiyasının texniki və texnoloji səviyyənin yüksəldilməsi tədbirlərinin kompleksliyində, resursqoruyucu innovasiyalı-intensiv istehsalın miqyas effektində, insanların həm istehsalçı, həm də istehlakçı kimi, sözün tam mənasında həyat keyfiyyəti meyarlarına adekvat iş və fəaliyyət mühitinin formalaşmasında ifadə olunan əlavə imkanlar açır.

İnnovasiyalı aqrar sahibkarlığın səmərəliliyi, müvafiq investisiya fəaliyyətinin səmərəliliyindən birbaşa asılıdır. İnnovasiyaların investisiyalaşması prosesinin səmərəliliyi, hər şeydən əvvəl aqrar sahənin investisiya cəlbediciliyinin stimullaşdırılması tədbirləri kompleksinin həyata keçirilməsini nəzərdə tutur. Həmin tədbirlər sayəsində elmi ideya ilə istehsal arasında aralıq mərhələlərin sayı azaldıqca - investisiyanın məhsul innovasiyalarına yönəldilməsi imkanları genişləndirilməli, innovasiyalı - intensiv texnologiyaların elmi təminatının maddi nəticələrinin bölgüsündə stimullaşdırıcı elementlər gücləndirilməli, intellektual mülkiyyətin qorunması sistemi təkmilləşdirilməli, aqrar sahibkarın innovasiyalı fəaliyyətinin informasiya təminatı zənginləşdirilməlidir.

Aqrar sahibkarlığın dayanıqlı və innovasiyalı fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin mühüm istiqamətlərinə aşağıdakıları aid edilməlidir: aqrar sahədə innovasiya fəallığının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi arealının genişləndirilməsi; innovasiyalı resursqoruyucu (aztullantılı və tullantısız) istehsalın maddi-texniki bazasının və adekvat infrastrukturun yaradılması; alternativ enerji mənbələrindən istifadənin regional şəbəkəsinin yaradılması; aqroparklara yaxın ərazilərdə innovasiyalı kənd təsərrüfatı məhsulları istehsalı və emalınınn, regionda məşğulluğun strukturuna təsirinin optimal idarə edilməsi; aqrar sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi, innovasiyalı sahibkarlığın institusional və kadr təminatının gücləndirilməsi; ekzogen və endogen xarakterli iqtisadi (rəqabət), hüquqi, sosial, texnoloji və ekoloji amilləri adekvat nəzərə alan optimal idarəetmə qərarlarının hazırlanmasında innovasiyalı fəaliyyətə yönümlü aqrar sahibkarlara metodiki və informasiya-məsləhət xidmətinin təşkili.

Aqrar sahədə çalışan sahibkarlar arasında könüllü əməkdaşlığa əsaslanan birgə fəaliyyəti (kooperasiyanı) ləngidən səbəblərin aradan qaldırılması

məqsədilə, ilk növbədə sahədə klasterial inkişaf dəstəklənməli, müxtəlif bitkiçilik və heyvandarlıq məhsulları istehsal edən kooperativlərin ixtisaslaşmasının əsas parametrləri məcmu səmərəlilik meyarları baxımından optimallaşdırılmalı, müxtəlif profilli kooperativlər vahid məqsədə xidmət edən şəbəkə əmələ gətirməli, istehsal fəaliyyətinə üstünlük verən kooperativlər üçün əlverişli kreditləşdirmə rejimi yaradılmalıdır.

Digər tərəfdən innovasiyalı sahibkarlığın dayanıqlı və səmərəli fəaliyyəti məqsədilə - yeni bazar seqmentlərinin intensiv axtarışı, kreativ və fəal marketinq siyasətinin prioritetlərinin əsaslandırılması, istehsal güclərinin maksimum yüklənməsi, sahibkarlıq subyektlərinin ödəniş qabiliyyətinin artırılması, çoxmeyarlılıq tələblərinə cavab verən restrukturlaşdırma, müflisləşmə və maliyyə sağlamlaşdırılması mexanizminin əlyetənliyi təmin edilməlidir.

Dissertasiya işinin mövzusu üzrə aşağıdakı məqalələr və elmi işlər nəşr edilmişdir:

1. İnnovasiyalı sahibkarlığın konseptual əsasları və aqrar sahədə onun xüsusiyyətləri. AzETKTİ və Tİ-nin Elmi əsərləri №2, Bakı, 2013,s.102-107; 0,5 ç.v.

2. İnnovasiyalı aqrar sahibkarlığın inkişafının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi imkanları. AMEA, İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, № 4, 2013, s.310-315; 0,5 ç.v.

3. İnnovasiyalı sahibkarlığın və dayanıqlı aqrobiznesin tənzimlənməsinin qabaqcıl xarici təcrübəsi haqqında. Azərbaycan Aqrar Elmi jurnalı, №3, 2013, s.169-172; 0,5 ç.v.

4. Aqrar sahibkarlığın dayanıqlı inkişaf mühitinin formalaşdırılmasının nəzəri-metodoloji məsələləri. Kooperasiya elmi-praktik jurnalı,№3, 2013, s.63-68; 0,5 ç.v.

5. Приоритеты формирования среды устойчивого развития аграрного предпринимательства. Международный научный журнал. №3, 2014; 0,5 ç.v.

6. İnnovasiyalı sahibkarlığın səmərəliliyinin yüksəldilməsi. Azərbaycan Texniki Universitetində 10-11 dekabr 2013-cü ildə keçirilən “Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri” mövzusunda respublika konfransının materialları. Bakı, 2013, s.218-220; 0,2 ç.v.

7. Aqrar sahibkarlığın dayanıqlı inkişaf imkanlarının qiymətləndirilməsi. Kooperasiya elmi-praktik jurnalı. № 2(33). Bakı, 2014, s.137-141; 0,5 ç.v.

8. Aqrar sahibkarlığın dayanıqlı inkişaf imkanlarının qiymətləndirilməsi. Odlar Yurdu Universiteti. Bakı, 2014 (çapdadır).



## SUMMARY

**Garashov Farhad Arif**

**Priorities of formation an environment of innovative and sustainable business in the agricultural sector**

The thesis consists of an introduction, three chapters, conclusions, bibliography and appendices. The relevance of the topic has been substantiated, the purpose and objectives of the study was determined, scientific novelty, practical and theoretical significance of the work was stated in the introductory part of the thesis.

In the first chapter the author studied the conceptual basis of innovative entrepreneurship, showed its features in the agricultural sector, studied theoretical and methodological issues of an environment for sustainable development of the agricultural business, and explored best practices of regulation of development of innovative entrepreneurship and sustainable agricultural business.

The second chapter was devoted for characterization of the entrepreneurial environment in the agricultural sector of Azerbaijan, analysis of the level of innovation in the industry and evaluation of opportunities for sustainable entrepreneurship in the agricultural sector.

In the third chapter, first of all, the basic means and ways of improving the control system of innovative entrepreneurship, priorities of formation an environment for sustainable development of the agricultural business were justified, the basic directions of growth of efficiency of the innovative and sustainable entrepreneurship in the agricultural sector were determined.

The outcomes and suggestions having theoretical and practical significance were defined at the end of the thesis.

**РЕЗЮМЕ**

Гарашов Фархад Ариф оглы

**Приоритеты формирования среды инновационного и устойчивого предпринимательства в аграрном секторе**

Диссертация состоит из введения, трех глав, выводов, списка использованной литературы и приложений. Во введении обоснована актуальность темы, определены цель и задачи исследования, изложена научная новизна, практическая и теоретическая значимость работы.

В первой главе исследованы концептуальные основы инновационного предпринимательства, выявлены ее особенности в аграрном секторе. Исследованы теоретико –методологические вопросы формирования среды устойчивого развития аграрного предпринимательства, изучена передовой опыт регулирования развития инновационного предпринимательства и устойчивого агробизнеса.

Во второй главе характеризована предпринимательская среда в аграрном секторе Азербайджана. Проанализирована сложивщееся уровень инновационной деятельности в отрасли, были оценены возможности устойчивого раззвития предпринимательства в аграрном секторе.

В третьей главе, прежде всего определены основные средства и направления совершенствования системы регулирования развития инновационного предпринимательства. Обоснованы приоритеты формирования среды устойчивого развития аграрного предпринимательства. Определены основные направления повышения эффективности инновационного и устойчивого предпринимательства в аграрном секторе.

В конце работы формулируются результаты и предложения, имеющие теоретическое и практическое значение.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 47, tiraj 100

"Araz" poliqrafiya müəssisəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ş.Bahəddin küçəsi, 59

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Гарашов Фархад Ариф оглы**

# Приоритеты формирования среды инновационного и устойчивого предпринимательства в аграрном секторе

**5312.01 – «Отраслевая экономика»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2015**